DÜNYA XƏBƏRLƏRİ

Rusiyanın hücumları Ukraynada 9 nəfərin həyatına son qoyub

Noyabr 13, 2026



Rusiyanın Odessaya hücumundan sonra zərər görmüş ev

Rusiya qoşunları Ukraynanın mülki və yaşayış infrastrukturunu yenidən atəşə tutub. Noyabrın 12-də Rusiyanın endirdiyi zərbələr nəticəsində dörd nəfər həlak olub, yeddi nəfər yaralanıb. Bu barədə Donetsk Vilayəti Hərbi Administrasiyasının rəhbəri **Vadim Filaşkin** məlumat verib.


Zaporojyedə fərdi yaşayış evlərinin yerləşdiyi əraziyə edilən hücum 17 yaşlı oğlanın həyatına son qoyub, daha dörd nəfər yaralanıb.

Odessada daha iki nəfər həlak olub. Burada Rusiyanın fərdi yaşayış evinə zərbə endirdiyi açıqlanıb.

Sumı vilayətində isə iki kişi öldürülüb.

Daha bir neçə vilayətdə xəsarət alanlar var.

Ukrayna isə noyabrın 13-nə keçən gecə pilotsuz uçuş aparatları ilə Volqoqrada hücum edib. Vilayətin qubernatoru **Andrey Boçarov** bildirib ki, dron qalıqlarının düşməsi nəticəsində **"Volqoqradın cənub sənaye zonasında yerləşən müəssisədə, eləcə də ona bitişik ərazidə lokal yanğınlar qeydə alınıb".**



"Astra" nəşri dronların "Lukoil"a məxsus Volqoqrad Neft Emalı Zavoduna hücum etdiyini yazır. Rusiyanın ən böyük neft emalı zavodlarından biri olan bu müəssisədə yanğın

başlayıb.

Boçarov Volqoqradın cənub sənaye zonasında çalışan dörd əməkdaşın həlak olduğunu, daha iki nəfərin isə xəstəxanaya yerləşdirildiyini deyib.

Ukraynanın "Exilenova+" və "Supernova+" monitorinq layihələri neft emalı zavoduna hücumdan sonra şəhərdəki yanacaqdoldurma məntəqələrində növbələr yarandığını yazır.

Rusiya Müdafiə Nazirliyi gecə ərzində Ukraynaya məxsus 1198 dronun məhv edildiyini açıqlayıb. TASS agentliyi yazır ki, bu, son bir ildə ən kütləvi hücumlardan biri olub.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur